# Gənclər Kitabxanası Gənclər Günü münasibətilə silsilə materiallar hazırlayıb

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə əlaqədar silsilə materiallar - videoçarx, ənənəvi sərgi və "Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir" adlı biblioqrafik icmal hazırlayaraq istifadəçilərə təqdim edib.**

Kitabxanadan bildirilib ki, videomaterialda Gənclər Gününün tarixi, ölkədə uğurla həyata keçirilən gənclər siyasəti - "Gənclər ili", "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Gənclər Fondu"nun yaradılması, gənclər üçün Prezident mükafatının təsis edilməsi, Könüllülük hərəkatı, gənclərlə əlaqədar elm, təhsil, mədəniyyət sahəsində qəbul edilən proqramlar haqqında geniş məlumat verilib. Azərbaycan gəncliyinin elmi, mədəni, iqtisadi, siyasi sferalarda qazandığı uğurlar, cəlb olunduğu beynəlxalq layihələr işıqlandırılıb.

"Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir" adlı biblioqrafik icmalda dövlət gənclər siyasəti haqqında qəbul edilən rəsmi sənədlər, mövzunu əhatə edən 20-dən çox kitabın biblioqrafik təsviri və annotasiyası, gənclik haqqında aforizmlər və digər maraqlı məlumatlar əks olunub.




Kitabxanada təşkil edilən ənənəvi sərgidə gənclər siyasəti, gənclərin elmi, mədəni, siyasi, beynəlxalq sahədə fəaliyyətlərini əks etdirən kitablar, dövri mətbuat materialları və kitabxana əməkdaşları tərəfindən hazırlanmış "Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir" adlı biblioqrafik icmal sərgilənib.

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.11.